**UOT 398; 801.8; 398; 801.6.**
**https://doi.org/10.59849/2218-4783.2025.2.231**

**ELXAN MƏMMƏDOV**

# EPİK FOLKLORDAN GƏLƏN MÖVZU, MOTİV VƏ OBRAZLARIN ŞEİRDƏ ƏKSİ (TELMAN AĞRIDAĞ, ƏHLİMAN ƏRƏFSƏLİ VƏ SAHİB ƏSGƏRLİ YARADICILIĞI ƏSASINDA)

*Naxçıvan ədəbi mühitinin nümayəndələri arasında mərhum şairlər – gənc yaşda dünyadan köçən Telman Ağrıdağ (40 yaş), Əhliman Ərəfsəli (39 yaş), Sahib Əsgərli (50 yaş) öz yaradıcılıqlarında folklora bağlılıqları ilə seçilən qələm sahibləridirlər. Hər üç şairin şeirlərində folklordan, xüsusilə epik janrlardan gələn mövzu və motivlərə, həmçinin epik nümunələrdən bildiyimiz obrazlara kifayət qədər müraciət olunduğunu görürük.*

*Bədii yaradıcılığın folklora söykənməsi ilə xalq tərəfindən daha rahat mənimsənilməsini yaxşı dərk edən şairlər öz əsərlərində buna davamlı olaraq əməl etmişlər. Həm Telman Ağrıdağın, həm Əhliman Ərəfsəlinin, həm də Sahib Əsgərlinin şeirlərinin bədii dəyəri kifayət qədər yüksək olmuşdur. Bununla bərabər onlar şifahi xalq ədəbiyyatı mövzularına da mütəmadi olaraq üz tutmuşlar. Həmçinin Azərbaycan folklorunun epik janrlarında qarşılaşdığımız motivlərdən ustalıqla istifadə etmişlər. Onu da əminliklə söyləyə bilərik ki, bu şairlərin yaradıcılığında öz fikirlərinin ifadəsi zamanı epik folklorda yer alan obrazlar da iştirak edirlər. Beləliklə də müəlliflər həm öz əsərlərinə bir xalq dili şirinliyi qatmış olurlar, həm də bu obrazlardan bədii xarakterlər kimi yararlanaraq fikirlərini oxucuya daha anlaşıqlı şəkildə çatdırırlar.*

*Məqalədə də Naxçıvan ədəbi mühitinin istedadlı yetirmələri olan hər üç şairin dünyadan nakam köçmələrinə baxmayaraq yaradıcılıqlarında folklorun epik ənənəsindən qaynaqlanan məsələlərin istifadəsi ön plana çəkilmiş, irəli sürülən iddialar şairlərin əsərlərindən gətirilmiş nümunələr əsasında daha dəqiq şəkildə şərh edilərək ortaya qoyulmuşdur.*

**Açar sözlər:** *folklor, mövzu, motiv, obraz, şeir, Naxçıvan, Telman Ağrıdağ, Əhliman Ərəfsəli, Sahib Əsgərli.*

**Giriş.** Tarixən bütün xalqlar öz ilkin düşüncə və arzularını, təsəvvürlərini şifahi ədəbiyyat nümunəsi kimi işləmiş, öz düşüncələrinin qavrama səviyyəsinə görə məfhumlara ad vermiş, hisslərinə ad qoymuş və bununla da gəldikləri qənaətləri, həmin məfhumların hansı mənaya gəldiyini və necə bir görünüşə sahib olduqlarını düşüncə məhsulu kimi ədəbiyyat faktına çevirməyə çalışmışlar. Beləliklə də ilkin təsəvvürlər miflərin, əfsanələrin, rəvayətlərin, inanc sisteminin, zaman keçdikcə digər folklor janrlarının yaranmasına gətirib çıxarmışdır.

Folklordakı bu düşüncə sistemi cəmiyyətin inkişafıyla müəyyən dövrdən yazılı formaya keçmişdir. Şifahi yaranan nümunələrin dildən-dilə, əsrdən əsrə, nəsildən nəslə keçərkən müəllifinin unudulması kollektiv yaradıcılıq məhsulu olmasını qaçılmaz edir. Daha sonra yazının, qələm-kağızın kəşfi yazılan mətnlərə müəllifin öz imzasını da qoyması ilə nəticələndi və yazılı ədəbiyyat nümunələri yaranmağa başlandı. Folklorun şüuraltı bazada qorunan mətnləri həmin yazılı əsərlərə də təsirsiz ötüşməmiş, yeni yaranan müəllifli əsərlərdə folklor nümunələrindən qaynaqlanan obrazların, motivlərin, bir çox hallarda folklordan gələn mövzuların işlənməsinə gətirib çıxarmışdır.

Uzun əsrlərin ənənəvi yaradıcılıq nümunələri xalqın düşüncəsində və yaddaşında kök saldığı üçün yeniliyə o qədər də alışmayan insanlara yazılı ədəbiyyatın nümayəndələri öz əsərlərini qəbul etdirmək üçün şifahi xalq ədəbiyyatının janrları, üslubu, mövzuları, motivləri və qəhrəmanlarından istifadə edərək yaratmağa çalışırdılar. Bununla da folklordan fərqli olaraq yazılı ədəbiyyat nümunələrinə də maraq göstərən oxucu kütləsi yeni yaradıcılıq nümunələrini də öz xalq dilinin təsirindən çıxmadan oxumağa həvəslənir, yadında saxlayır və təbliğ etməyə çalışırdı.

Dünyanın mədəniyyət yaratmış bir çox xalqlarının folkloru kimi yazılı ədəbiyyat nümunələri də bu baxımdan tez bir zamanda xalqın düşüncəsində öz yerini tapa bildi. Şifahi xalq ədəbiyyatı zəngin olan türk dünyasında da folklor nümunələri kimi yazılı ədəbiyyat nümunələri də insanların tez bir zamanda qəbul etdiyi yaradıcılıq nümunələri arasında möhkəmləndi.

Azərbaycan türklərinin yaradıcı şəxsiyyətlərinin ortaya qoyduğu fərdi yaradıcılıq nümunələri şifahi xalq ədəbiyyatından yazılı ədəbiyyata keçid mərhələsində xalq dilinə, xalqın ənənəvi yaradıcılıq məhsuluna olan yaxınlığı və süjet, motiv, üslub, obraz oxşarlıqları ilə tez bir zamanda qaynayıb-qarışma imkanı yaratmağa nail oldu.

Klassik poeziyamızda var olan şifahi xalq yaradıcılığından təsirlənmə məqamlarını günümüzün bədii əsərlərində də açıq-aydın görürük. Xüsusilə şeir yaradıcılığında müqayisələrin aparılması, bənzətmələrin təqdimi zamanı folklor çox köməyə çatır. Tədqiqatçı alimlərimizdən Azadə Rüstəmova "Azərbaycan epik şeirinin inkişaf yolları"ndan danışarkən bizim də yuxarıda vurğuladığımız məqamlarla paralellik təşkil edən aşağıdakı fikirlərini ortaya qoyur. Müəllif yazır: "Əvvəlcə süjetli mərasim nəğmələrində mifik obrazın özü, sonra isə onun haqqında olan əsatir yaranmış, ağızdan ağıza, nəsildən-nəslə, dövrdən-dövrə keçərək canlı surətlərlə zənginləşmiş, fantastik örtüyə bürünüb dolğun bədii bir sənət əsərinin yaranmasına səbəb olmuşdur. Qədim və orta əsrlər ədəbiyyatının inciləri hesab olunan dünya şifahi epik şeir nümunələrinin əksəriyyəti bu yolla, təbəddülata vara-vara inkişaf etmiş, poeziyada kamil və ölməz sənətin yaranması üçün zəmin hazırlamışdır" [6, s. 9].

Azərbaycan ədəbi mühitinin mühüm tərkib hissəsini təşkil edən Naxçıvan regionu ədəbi mühitində meydana çıxan poeziya nümunələrində də folklora müraciət kifayət qədərdir. Naxçıvan mühitində meydana gələn poeziya nümunələrində rast gəldiyimiz məqamlar, onu deməyə əsas verir ki, bölgənin şeir yaradıcılığına folklorun təsiri danılmazdır. Xüsusilə şifahi xalq ədəbiyyatının epik nümunələrində rast gəldiyimiz motiv, mövzu və obrazların son yüz ilin şeirində yer alması xalqın düşüncəsində folklor yaradıcılığına möhkəm bağlılığın hələ də davam etdiyini göstərən əsas məqamlardan biridir.

Naxçıvan bölgə mühitində yetişmiş üç mərhum şairin – Telman Ağrıdağ, Əhliman Ərəfsəli və Sahib Əsgərlinin əsərlərində şifahi xalq ədəbiyyatının epik nümunələrindən gələn mövzu, motiv və obrazların zənginliyini nəzərə alaraq hər üç şairin əsərlərini bu prizmadan tədqiq etdik.

**Telman Ağrıdağ yaradıcılığında epik folklordan gələn mövzu, motiv və obrazlardan istifadə.** Şərur rayonunda doğulan və 40 il ömür yaşamış Telman Ağrıdağ şeirlərində əjdaha obrazı tam fərqli bir görkəmdə özünü göstərir. Özünəməxsus yaradıcılıq dili olan şairin "Möminə xatın" adlı şeirində əjdaha xalqımızın milliliyini özündə qoruyub saxlayan maddi-mədəniyyət nümunələrinə göz dikən bir obraza bürünüb. Həmin şeirin bir bəndində oxuyuruq:

Paris muzeyləri əjdaha kimi
Daş-daş daşıyıblar bu doğma yurdu.
Möminə xatunu necə olub ki,
Apara bilməyib ingilis lordu?! [1, s. 48].

Tarixən maddi-mədəniyyət nümunələrimizin xalqımızın daş yaddaşına çevrilmiş dəyərləri öz muzeylərində eksponata çevirmək üçün talayıb aparan ingilislərə, ingilislərin timsalında digər yadelli işğalçılara və talançılara əjdaha görkəmi verən şair milli təəssübkeşliyini uğurlu bir şəkildə təqdim edir və bu zaman epik folklordan gələn obraz yaradıcılığı ilə diqqəti çəkir.

Epik folklor nümunələrimiz arasında Ay və Günəşlə bağlı maraqlı əfsanələr, hətta mif mətnləri belə vardır. Belə əfsanələrdə Ayın oğlan, Günəşin gözəl qız kimi təsvir olunması da bir çoxlarımıza məlumdur. Bu motivdən istifadə edən Telman Ağrıdağ "Torpaq eşqi" şeirində Ay-Günəş motivindən, həmçinin hər iki obrazın bizə folklordan tanış olan xüsusiyyətlərindən məharətlə yararlanmışdır:

Pəncərəmin önündə
Ay dolanır.
Torpağa baxmaq üçün
Şam kimi alovlanır.
Deyirlər ki, Ay oğlandı,
Günəş qız...
Necə yanlış fəlsəfə,

Nə qədər quru, cansız.
Günəş yerin məşuqudur,
Yerə vurulub.
Aysa yerin aşiqidir,
Dərdindən solub [1, s. 67].

Obrazlara fərqli yanaşan şair Günəşi də, Ayı da Yer kürəsinin aşiqi və məşuqu kimi təqdim edərək onların bir-birinə yox, məhz Yerə aşiq olmasından söz açır. Əslində Telman Ağrıdağ folklor mətnindən yola çıxaraq, folklor motivinə fərqli tərəfdən baxaraq onu özününküləşdirərək oxucuya təqdim edir. Həm də yaşadığı dünyaya təəssübkeşlikdən doğan bir şair sevgisi ilə buna nail olur.

T.Ağrıdağın başqa bir şeirində daha bir əfsanənin motivləri özünü göstərir. Eyni zamanda həmin əfsanədəki obraz burda fikrin ifadəsində şairə gərək olur. Belə ki, "Dəli həsrət" adlı şeirdə "Sara və Xançoban" [5, s. 54-55] əfsanəsini xatırlamış oluruq. Eyni zamanda dastanlarımızdan "Əsli və Kərəm"i, şərqin məşhur dastanlarından olan və bir çox şairlərimiz tərəfindən nəzmə çəkilən "Leyli və Məcnun" da adını çəkdiyimiz şeirdə şairin misralarına çevrilir:

Mən Saranın arzusuyam,
Doğrulmasam –
Sellər-sular aparar.
Mən bir Məcnun harayıyam,
Leyli deyil, ana torpaq arzulu.
Mən bir yanıq Kərəmiyəm
Hər səsimdə nalə dolu, qəm dolu [1, s. 68].

Telman Ağrıdağın bir şeirində epik folklorumuzun ən məşhur obrazı olan div divar paralelliyində tənha qadının üzərinə gəlir. Maraqlı poeziya faktına çevrilən bu təşbehlə şair oxucunun bədii zövqünü də oxşamış olur:

Otaq qəbir kimi sıxar ruhunu,
Divarlar div kimi gələr üstünə [1, s. 143].

**Əhliman Ərəfsəli yaradıcılığında epik folklordan gələn mövzu, motiv və obrazlardan istifadə.** Mövzumuzla bağlı zəngin material bazalı yaradıcılığa malik olan şairlərdən biri də Əhliman Ərəfsəlidir. Bir neçə il bundan əvvəl bizim rəhbərliyimizdə maraqlı bir tədqiqat aparan "Sabahın tədqiqatçıları" layihəsinin istedadlı və zəhmətkeş üzvü Laçın Hacıyeva Əhliman Ərəfsəlinin folklora bağlılığından bəhs edərkən yazırdı: "Yeniyetməlik dövrlərindən şeir yazmağa başlayan Əhliman Ərəfsəli də məhz xalqın söz yaddaşına yaxından bələd olan bir şair idi. Bunu onun şeirlərini oxuduqca da görmək mümkündür. İndiyə kimi tədqiq olunmamış bir şairin yaradıcılığında folklor janr, nümunə, motiv və mövzularından geniş şəkildə istifadə etməsi Əhliman Ərəfsəlinin xalq yaradıcılığına bağlı olduğunu və xalq dili ilə öz fikirlərini ifadə etməyə çalışdığını göstərir. Hətta bu bağlılıq nəticəsində şairin özünün də folklor mahiyyətində olan nümunələrlə şifahi xalq ədəbiyyatımızı zənginləşdirdiyini deyə bilərik" [4, s. 12].

Məqaləsində Əhliman Ərəfsəlinin yaradıcılığında folklordan gələn obrazlar sisteminə də toxunan Laçın Hacıyeva epik folklor nümunələrindən yaxşı bildiyimiz obrazların şairin şeirlərində yeri gəldikcə istifadəsini də tədqiqata cəlb edərək yazır: "Ədiblərimizin hamısında vətən mövzusunun özünəməxsus yeri vardır. Daima sevilən, müqəddəs, ana kimi əziz tutulan vətən Əhliman Ərəfsəli şeirlərində də geniş yer tutur. Şairin aşıq yaradıcılığı nümunəsi olan cinaslı gəraylı janrında yazdığı "Vətən oğlu" buna ən gözəl nümunədir. Burada Səməndər quşu obrazından istifadə diqqətdən yayınmır:

Mən də, sən də, o da təşnə,
Səməndərik – oda təşnə.
Yaxşı bilir od, ataş nə
Vətənimin vətəndaşı.

"Gəl" gəraylısında "Xan Çoban" əfsanəsinə toxunub, bu əfsanənin personajlarından Xan Çobanı, Saranı yad etməyi unutmayıb.

"Nə ağ qoça/Nə də Zümrüd quşunun/Qanadına arxalan" misralarının yer aldığı "Mübarizə" şeiri bizi uşaqlığımıza qaytarır, nənələrimizdən "Məlikməmməd" nağılını dinləmiş kimi oluruq" [4 s. 12].

Şairin "Qoç yarası" şeirinin əvvəlində "Yaralanmış ağ qoçam" [2, s. 13] misrasına da rast gəlirik. Bildiyimiz kimi məşhur nağılımızda ağ qoç qəhrəmanı qaranlıq dünyadan işıqlı dünyaya çıxaran obrazdır. Yəni xeyirxah məqsədlidir. Şair də özünü bu mənada xeyir işlərə köklənmiş halda təsvir edir, lakin yaralı qoç olduğunu söyləməyi də unutmur. Burada şairin vermək istədiyi bir çox mesaj var. Şeirin yazıldığı dövrdə ölkədəki ictimai-siyasi vəziyyət, yenicə müstəqillik qazanmış ölkəmizin torpaqlarının düşmənlər tərəfindən işğalı kimi məsələləri şeirin digər bəndlərində görə bilirik.

**Sahib Əsgərli yaradıcılığında epik folklordan gələn mövzu, motiv və obrazlardan istifadə.** Mərhum şair, istedadı ilə oxucuların ürəyində özünə böyük yer tutan Sahib Əsgərli başdan-başa folklor ruhlu biri idi. Onun əsərlərinin hər birində şifahi xalq ədəbiyyatından müəyyən detala rast gəlmək mümkündür. İxtisasca Azərbaycan dili və ədəbiyyatı müəllimi olan Sahib Əsgərli tələbəlik dövründən başlayaraq folklor nümunələrini ağsaqqallardan, ağbirçəklərdən toplamaqla zəngin söz yaddaşımızın qoruyucularından biri olmuşdur. Görünür Sahib Əsgərlinin bu fədakar fəaliyyəti yazdığı şeirlərə də təsirsiz ötüşməmişdir.

Mövzumuz epik folklor nümunələrindəki obraz, motiv və mövzuların şeirdə əksindən gedirsə, Sahib Əsgərli yaradıcılığı da bu mənada tədqiqatdan kənarda qala bilməz. "Cırtdan" nağılı motivlərinin danışdığımız kimi Sahib Əsgərli şeirində istifadəsindən geniş söhbət aça bilərik. Onun "Üzümü it hürən tərəfə tutdum" adlı şeirinin adı belə bizi Cırtdanla yol yoldaşlığına aparır. Altı bəndlik şeiri bütövlükdə təqdim etmək istəyirəm. Həm şeirin sənətkarlıq cəhətdən gözəlliyi, həm də şairin epik folklordan istifadəsinin bütün bəndlərdə özünü göstərməsi bu şeiri ayrıca bir məqalə şəklində də öyrənməyə material verə biləcək gücdədir. Ona görə də şeiri bütövlükdə oxuyaq:

Nağıl yaddaşımın yaşıdı Cırtdan,
Ağlımı vermədim sənin ağlına.
Üzümü it hürən tərəfə tutdum,
Bu yol yazılmışdı vallah alnıma.

...Üzümü it hürən tərəfə tutdum,
Adladım xofundan neçə qorxunun.
Div sənə qayğanaq verirdi o vaxt,
Qayğanaq iyinə qaçmışdı yuxun.

Bəxtəvər başına sənin, ay Cırtdan,
Nə var aldatmağa ağlıkəm divi.
Sənə su daşıdı xəlbirdə səfeh,
Yaxşı ki, div bilmir itin dilini.

Bəxtəvər başına sənin, ay Cırtdan,
Çıxdın aydınlığa... işıq səmtinə.
Üzümü it hürən tərəfə tutdum,
Ulayır hələ də o it bəxtimə... [3, s. 118].

Gördüyümüz kimi "Cırtdan" nağılı bütövlükdə bu şeir sayəsində gözümüz önündə canlanır. Lakin müəllif başqa mətləbdən söz açır. Yəni nağılı nəzmə çəkmir, nağılı şeir şəklində təqdim etmir. Şeirinə hürənlərin timsalında "Cırtdan" nağılını model kimi götürür və onun üzərində bədii-poetik təsvirlər yaradaraq həm də mətnaltı şəkildə öz düşüncələrini hədəfə ox kimi batırır.

Sahib Əsgərlinin müxtəlif şeirlərindəki fərqli misralarda da epik folklor ənənəsindən gələn obrazlar, motivlər, mövzular müşahidə olunur. Əgər "Adını yazıram" şeirində "göy "əjdaha"yla qarşılaşırıqsa [3, s. 90], "Bir şair çıxar əlbət" şeirində "Məndən öndəki azman, Div kimi kəhildəyir. Sözün ətini yeyib, Sümüyün gəmirtləyir" [3, s. 42] misralarında Divin səsini eşidirik, "Qaytar qanın bahasına" şeirində "Zümrüd quşu su içirir, əsirlərə qanadında" [3, s. 66] ifadəsi bizi nağıllar aləminə aparır, "Haydı, bir hovur da hayqır, Təbrizim" şeirində siyasi lirikanın orijinal nümunəsi ortaya qoyulur və "Dur sal o taxçadan "div şüşəsini" [3, s. 83] deməklə məramını ifadə edir. "Şeirim" adlı nümunədə isə "Bir div quyusundan bir cam su içdi, Sər-tamam nağıla boyandı şeirim" [3, s. 23] misralarında nağıl obrazı və motivini görürük.

Şairin bir şeiri haqqında da geniş söz açmaq olar. "Gəl bizə sən elə bir nağıl danış" adlı nümunədə maraqlı obrazlar, nağıllardan gələn mövzuların fərqli süjetləri, eyni zamanda nağıl motivləri gözə dəyir. Həm də bu şeirdə biz bir neçə nağıldan, bir neçə mövzunun dilə gətirildiyini, bir çox nağıl motivlərinin şair tərəfindən oxucuya xatırladıldığını, nağıl obrazlarını görürük. Şeirin dolğunluğu, mövzuya birbaşa aidiyyəti bu nümunənin bütöv halda oxunması ehtiyacı yarandığını deməyə əsas verir:

Gəl bizə sən elə bir nağıl danış,
Elə bir nağıl ki, qısa olmasın.
...Orda gözləri göy, dişləri seyrək,
Saqqalı bir qarış kosa olmasın.

Gəl bizə sən elə bir nağıl danış,
...Tacirdə toyuqcan ağıl olmasın.
Piyləyib başını vəzir, vəkilin,
Şahın baş tacını keçəl qoymasın.

Gəl bizə sən elə bir nağıl danış,
Çəmini bilməsin divlər savaşın.
Hardasa bir adsız gözəlin üstə,
Kəndirin kəsməsin qardaş qardaşın.

Gəl bizə sən elə bir nağıl danış,
..Ana öz qızından hayıf almasın.
Taxt-tacın üstündə ata oğlunun
Gözlərin çıxarıb mayıf qoymasın.

Gəl bizə sən elə bir nağıl danış,
Açıq gözümüzə yuxu dolmasın.
Bizi hey yuxuya verib nağıllar,
Elə bir nağıl de, nağıl olmasın... [3, s. 97].

Şeirin hər bəndini ən kiçik detalına qədər incələsək, hər bəndin misralarında azı iki nağıldan motivlər üzə çıxacaq. Ona yaxın obraz gözümüzə dəyəcək. Və bu nağılların hər biri şairə orijinal bir mövzu verməsi ilə seçilir.

**Nəticə.** Şifahi xalq ədəbiyyatının yaradıcı insanlar üçün həmişə ilham qaynağı olduğu bəlli bir həqiqətdir. Şair və yazıçılar öz yaradıcılıqlarında folklor motiv və süjetlərindən istifadə etmiş, folklordan götürdükləri mövzuları öz əsərlərində məharətlə işlətmişlər. Eyni zamanda folklordan gələn obrazlar vasitəsi ilə də öz fikirlərinin ifadəsi zamanı maraqlı situasiyalarda yeni obrazlar yaratmağa nail olmuşlar. Xalq yaddaşımızın epik növdə olan nümunələrindən gələn motivlərdən, mövzulardan və obrazlardan haqqında söz açdığımız müəllifin yaradıcılıq üslubuna uyğun şəkildə istifadə etməsi

də bu mənada başadüşüləndir. Apardığımız tədqiqatlar zamanı araşdırma müstəvisinə cəlb etdiyimiz müəlliflərin nəzm nümunələrində epik folklor örnəklərindən gələn bu cür mövzu, motiv və obrazlardan yararlanma şifahi söz sənətimizin epik qanadından təsirləndiklərini göstərir. Şairlər qeyd etdiyimiz məqamlardan yararlanarkən sözçülüyə çox nadir hallarda getmiş, daha çox bədii tutumu yüksək, oxucu zövqünü oxşayan, fikirlərini dolğun şəkildə ifadə edəcək motivlərə üstünlük vermiş, obrazlardan istifadə etmiş, mövzulara yaradıcı yanaşmışlar. Folklorumuzun epik nümunələrindən daha çox nağıllar şairlərimizin şeirlərinə öz təsirini göstərmişdir. Nağıllardan isə ən çox istifadə edilən "Məlikməmməd" və "Cırtdan" nağılı olmuşdur ki, bu iki epik nümunə şairlərimizin yaradıcılığında motiv istifadəsi, həmçinin obraz yaradıcılığı zamanı köməyə çatmışdır.

Obrazlar olaraq şairlərimiz epik nümunələrdə div, əjdaha, Cırtdan, Simurq (bəzi hallarda Zümrüd), Ağ qoç və sair obrazlardan yararlanmışlar.

Nağıllardan sonra ən çox istifadə edilən janr dastanlarımız olmuşdur ki, burada da Dədə Qorqud, Koroğlu, Kərəm, Əsli və digər dastan qəhrəmanlarından istifadə edilmişdir.

Tədqiqatımızın başlığına çıxardığımız mövzu, motiv və obraz yaradıcılığı üçlüyünü nəzərə alsaq, Azərbaycan şifahi xalq ədəbiyyatının epik nümunələrindən istifadə zamanı obraz yaradıcılığı daha çox önə çıxır. İkinci olaraq nağıl, dastan və əfsanələrimizdə yer alan bir çox motivlər şairlərimizin yaradıcılığında özünü göstərir. Üçüncü olaraq isə mövzunu qeyd etməliyik ki, şairlərimiz epik folklor ənənəsində yer alan mövzulardan öz yaradıcılıqlarında digər ikisinə görə daha az yer vermişlər.

Ümumiyyətlə Telman Ağrıdağ, Əhliman Ərəfsəli və Sahib Əsgərli yaradıcılığında şifahi xalq ədəbiyyatının epik nümunələrindən gələn mövzu, motiv və obrazların istifadəsi həmin qələm sahiblərinin folklora bağlılığından, folklorun nəzm (lirik) nümunələri kimi nəsr (epik) nümunələrindən də yaradıcı şəkildə istifadə etdiklərindən, folklorumuza bütövlükdə nə dərəcədə bələd olduqlarından xəbər verir. Bu da şifahi xalq ədəbiyyatının, xalq yaddaşının tükənməz xəzinəsinin bütün dövrlərdə olduğu kimi son bir əsrdə də şairlərimizə ilham qaynağı, mövzu mənbəyi olduğunu göstərir.

## ƏDƏBİYYAT

1. Ağrıdağ T. Bir gün məndən sonra. Bakı: Avropa, 2005, 256 s.
2. Ərəfsəli Ə. Asimana qovuşan. Bakı: Azərnəşr, 1994, 48 s.
3. Əsgərli S. Gedirəm özümə bir gün ağlayam. Naxçıvan: Əcəmi, 2021, 208 s.
4. Hacıyeva L. Əhliman Ərəfsəlinin yaradıcılığında folklor izləri. "525-ci qəzet", 2023, 07 iyun, s. 16.
5. Naxçıvan folklor antologiyası: 3 cilddə. I c., Naxçıvan: Əcəmi, 2010, 512 s.
6. Rüstəmova A. Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər). Bakı: Elm, 1975, 288 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elxan.yurdoglu@yahoo.com***

**Elkhan Mammadov**

## REFLECTION OF THEMES, MOTIFS AND IMAGES OF EPIC FOLKLORE IN POETRY (BASED ON THE CREATIVITY OF TELMAN AGRIDAĞ, AHLIMAN ARAFSALI AND SAHIB ASGARLI)

Among the representatives of the Nakhchivan literary environment, the late poets Telman Ağrıdag (49 years old), Ahliman Arafsali (39 years old), and Sahib Askerli (50 years old) who passed away at a young age, are distinguished by their commitment to folklore in their work. In the poems of all three poets, we see that themes and motifs from folklore, especially epic genres, as well as images we know from epic examples, are sufficiently addressed.

Poets who understood well that artistic creativity is more easily assimilated by the people when it is based on folklore have consistently followed this in their works. The artistic value of the poems of both Telman Ağrıdag, Ahliman Arafsali, and Sahib Askerli was quite high. At the same time, they regularly turned to the themes of oral folk literature. They also skillfully used the motifs we encounter in the epic genres of Azerbaijani folklore. We can also say with confidence that the images found in epic folklore are also present in the work of these poets when expressing their ideas. Thus, the authors both add a folk sweetness to their works and, using these images as artistic characters, convey their ideas to the reader in a more understandable way.

Although all three poets, who are talented representatives of the Nakhchivan literary environment, have passed away, the article emphasizes the use of issues originating from the epic tradition of folklore in their works and interprets and presents the claims in a more precise manner using examples from the poets' works.

**Keywords:** *folklore, theme, motif, image, poem, Nakhchivan, Telman Ağrıdag, Ahliman Arafsali, Sahib Askerli.*

**Эльхан Мамедов**

## ОТРАЖЕНИЕ ТЕМ, МОТИВОВ И ОБРАЗОВ ЭПИЧЕСКОГО ФОЛЬКЛОРА В ПОЭЗИИ (НА ПРИМЕРЕ ПРОИЗВЕДЕНИЙ ТЕЛЬМАНА АГРЫДАГА, АХЛИМАНА АРАФСАЛИ И САХИБА АСКЕРЛИ)

Среди представителей нахчыванской литературной среды покойные поэты Тельман Агрыдаг (40 лет), Ахлиман Арафсали (39 лет), Сахиб Аскерли (50 лет), ушедшие из жизни в молодом возрасте, отличаются приверженностью фольклору в своем творчестве. Мы видим, что в стихах всех трех поэтов достаточно полно раскрыты темы и мотивы фольклора, особенно эпические жанры, а также образы, известные по эпическим образцам.

Поэты, хорошо понимавшие, что художественное творчество, основанное на фольклоре, легче усваивается народом, последовательно последовательно воплощали этот принцип в своих произведениях. Художественная ценность стихотворений Тельмана Агрыдага, Ахлимана Арафсали и Сахиба Аскерли была весьма высока. В то же время, они регулярно обращались к темам устного народного творчества. Они также умело использовали мотивы, встречающиеся в эпических жанрах азербайджанского фольклора. Можно с уверенностью сказать, что образы, встречающиеся в эпическом фольклоре, также участвуют в творчестве этих поэтов при выражении их идей. Таким образом, авторы не только добавляют своим произведениям изящество народного языка, но и используют эти образы в качестве художественных персонажей, чтобы донести свои идеи до читателя более доступным способом.

В статье подчёркивается, что, несмотря на безвременный уход всех трёх поэтов, талантливых выпускников нахчыванской литературной среды, использование в их творчестве проблематики, вытекающей из эпической традиции фольклора, способствует более точной интерпретации высказанных утверждений, что подтверждается примерами из произведений поэтов.

**Ключевые слова:** *фольклор, тема, мотив, образ, стихотворение, Нахчыван, Тельман Агридаг, Ахлиман Арафсали, Сахиб Аскерли.*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 09.09.2025**
**Son variant 02.10.2025**